**ƏHMƏD SABİRİ HƏMƏDANİ**

# İMAM HÜSEYN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA

**Tərcümə edəni:**
Hafiz ABIYEV

**İRAN İSLAM CÜMHURİYYƏTİ**
**«ƏLHUDA» BEYNALXALQ NƏŞRİYYATI**
**BAKI ŞÖBƏSİ - 1995**

***İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA***

Bu əsər müəllifin ərəbcə yazdığı kitablardan biridir. İndiyə qədər urdu, fars, türk dillərinə tərcümə edilərək çap olunmuşdur. Biz də bunu azəri türkcəsinə çevirdik.

## *İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA*



İslam hədisləri araşdıranların hər birinə yaxşı məlumdur ki, xatəmən-nəbiyyin Həzrət Mühəmməd (s) adamları dinə dəvət etməyə başlarkən onları belə müjdələmişdir: «Müşriklər istəməsə də Allah-Taala öz dinini bütün dinlərə qalib çıxaracaqdır». Sonra Həzrət Peyğəmbər bu müjdəsini açıqlayaraq bildirmişdir ki, adı mənim adım, künyyəsi mənim küniyyəm olan bir nəfər zühur edəcək, zülm və təcavüzlə dolu olan dünyanı bərabərlik və ədalətlə idarə edəcəkdir. Bu şəxs Mehdidir (ə.f).

Bu mövzuda bir çox kitablar yazılmışdır. Onların müəllifləri şiələrin və sünnilərin ən görkəmli alimləridir.

Həzrət Rəsulullahdan (s) sonra onun əshabının və Əhli-beytindən olan məsum imamların dövründə də adamların bu mövzu ətrafında düşündüklərini bilirik. Məsum imamlardan (ə) və Həzrət Rəsulullahın (s) əshabından İmam Mehdinin (ə.f) xasiyyəti, əxlaqı, əzəməti, qeyb olması və zühur əlamətləri haqqında nəql edilən rəvayət buna parlaq misaldır.

İmam Mehdi (ə.f.) barəsindəki hədisləri toplayarkən mənə aydın oldu ki, onun haqqında ən çox hədislər İmam Hüseynə (ə) məxsusdur. Həzrət İmam Hüseyn (ə)-ın mövzudakı hədisləri babası Həzrət Mühəmmədin (s) və atası Həzrət Əlinin (ə) söylədiklərindən belə çoxdur. Bunların hamısı şiə və sünni qaynaqlarında vardır. Mən həmin hədisləri oxucuları və İmam

Mehdinin (ə.f) zühurunu gözləyənləri sevdirmək üçün bir məcmuə halında toplamağı qərara aldım.

Bu məcmuə Həzrət Mehdi (ə.f) haqqında yazılan kitab və əsərlərin müqabilində kiçik bir çalışma olsa da, mühüm bir mənbə sayıla bilər. Həzrət Mehdi (ə.f) səkkizinci babası olan İmam Hüseyndən (ə) nəql edilən bu rəvayət və hədislərin oxucular tərəfindən maraqla qarşılanacağına ümid edirəm.

Başqa bir məqsədim isə aciz bir bəndə kimi əzizi mövlam Həzrət Mehdinin (ə.f) məhəbbətini dilə gətirərək, onun uca məqamına öz sədaqətimi bildirməkdən ibarətdir.

Kərəm sahibi olan Allah-Təaladan bu cüzi işimizi qəbul etməsini, xatəmən-nəbiyyin Həzrət Mühəmməd (s) və onun pak Əhli-beyti (ə) hörmətinə qiyamət günü bunu bizim üçün bir təqərrüb saymasını diləyirəm.

# BİRİNCİ BÖLÜM

## MÜJDƏ VERƏN HƏDİSLƏR

**1.** Abdullah ibn Ömər rəvayət edir ki, İmam Hüseyn (ə) belə buyurmuşdur: «Əgər dünyanın sonuna yalnız bir gün qalmış olsa, Allah-Taala o gün o qədər uzadacaq ki, mənim nəslimdən bir kişi qiyam edərək zülm və təcavüzlə dolmuş yer üzünü ədalət və bərabərliklə dolduracaqdır. Mən bunları cəddim Rəsulullahdan (s) şəxsən eşitmişəm».[1]

**2.** Şeyx Səduq öz sənədi ilə Həzrət İmam Hüseyndən (ə), o da atası Həzrət Rəsulullah (s) buyurmuşdur: «Məndən sonra on iki imam gələcəkdir. Onların birincisi sənsən, ya Əli. On ikincisi isə yerin gündoğanı ilə günbatanı arasındakı məsafəni fəth edəcək qiyam sahibi Mehdidir».[2]

**3.** «İhqaqul-həğ» kitabının müəllifi sənədlər əsasında Həzrət İmam Hüseyndən (ə), o da atası Həzrət Əlidən (ə) Həzrət Rəsulullahın belə buyuruğunu rəvayət edir: «Mehdi mənim övladlarımdandır. Onun millətləri heyrət və çaşqınlığa salacaq qeybəti olacaqdır. O, peyğəmbərin miraslarının sahibi kimi gəlib yer üzünü zülm və təcavüzdən azad edəcək və dünyanı ədalətlə dolduracaqdır.[3]

**4.** Əbdürrəhman ibn Səlt İmam Hüseynin (ə) belə buyurduğunu rəvayət etmişdir: «On iki Mehdi» (hidayət edilmiş adam) bizdəndir. Onların ilki Həzrət Əmirəl-möminin Əli ibn Əbu Talib, sonuncusu isə mənim doqquzuncu

---

[1] «İqmalüd-din» Mühəmməd ibn Əli əs-Səduq əl-Qumi, cild 1, səh. 318.
[2] «Üyunil-Əxbari-riza» Mühəmməd ibn Əli əs-Səduq əl-Qumi, səh. 65.
[3] «Ehqaqül-həqq» cild 13, səh. 177.

övladımdır. Haqq işi üçün qiyam edəcək imam odur. Yer üzü öldükdən sonra Allah-Taala təkrar onun vasitəsilə dirildəcəkdir. Onunla İslam dinin bütün dinlərə qalib edərək, müşriklər istəməsələr də haqqı isbat edəcəkdir. Onun, bir çoxlarının mürtəd, digər bir qrupun isə dində sabit qalacağı bir qeybəti olacaqdır. O zaman onlara söylənilacək: «Əgər doğru söyləyirsinizsə, bu vəd nə zaman gerçəkləşəcək?» Bilin ki, o Həzrətin qeybət zamanında əziyyət və böhtanlara səbr edən şəxs Həzrət Rəsulullahın (s) hüzurunda qılıncı ilə cihad edən bir insan kimidir».[4]

**5.** Həzrət İmam Hüseyn (ə) qardaşı İmam Həsəndən (ə), o da atası Həzrət Əlidən (ə) Həzrət Rəsulullahın belə buyurduğunu rəvayət edir: «Haqq işi üçün qiyam edəcək Mehdi qiyam etməyincə qiyamət olmayacaqdır. O, Allahın izn verdiyi bir zamanda qiyam edəcəkdir. Ona tabe olanlar nicat tapacaq, arxa çevirənlər həlak olacaqlar. Ey Allahın bəndələri, Allahı yadınıza salın və dizi üstə iməkləmək də belə olsa ona (Mehdiyə) tərəf gəlin. Çünki o, Allahın və mənim xəlifəmdir».[5]

**6.** Yenə Həzrət İmam Hüseyn (ə) qardaşı İmam Həsəndən (ə), o da atası Həzrət Əlidən (ə) rəvayət edir ki, Peyğəmbər (s) buyurmuşdur: «Dünya, Hüseynin nəslindən bir kişinin zühur edərək zülm və təcavüzü ədalət və bərabərliklə əvəz etməyincə sona çatmayacaqdır».[6]

**7.** Həzrət İmam Hüseyndən (ə) Həzrət Rəsulullahın belə buyurdu rəvayət olunmuşdur: «Sonra bizim qiyam edənimiz qiyam edəcək. Yer üzünü zülm və təcavüzdən təmizləyib,

---

[4] «İqmalüd-din» Mühəmməd ibn Əli əs-Səduq əl-Qumi, cild 1, səh. 317; «Üyunil-Əxbari-riza» cild 1, səh. 18; «Biharul-Ənvar» cild 51, səh. 133.

[5] «Dalailül-imamət» səh. 5.

[6] «Kifayətül-əsər» səh. 5.

ədalət və bərabərliklə dolduracaqdır. Beləliklə onun şiələrinin qəlbi rahatlıq tapacaqdır».[7]

**8.** Şüəyb ibn Həmzədən belə dediyi rəvayət olunmuşdur: «Həzrət Hüseyn ibn Əlinin (ə) hüzuruna gələrək ondan soruşdum ki: bu işin (qiyamın) sahibi sənsənmi? İmam «xeyir» deyə cavab verdi. Onda sənin oğlundurmu? İmam buyurdu: «O Yer üzünü zülm aldığı zaman qiyam edib dünyanı ədalətlə dolduran kimsədir. Rəsulullahın (s) uzun bir müddət keçdikdən sonra məbus olduğu kimi, o da uzun bir müddət İmam boşluğdan sonra gələcəkdir».[8]

**9.** Həzrət İmam Hüseyndən (ə) soruşdular: «Gərəsən Mehdi doğulmuşdurmu ?» İmam cavab verdi: «Xeir, əgər onun zamanda olsaydım, ömrüm boyu ona xidmət edərdim».[9]

**10.** Abdulla ibn Şərikdən belə rəvayət olunmuşdur: «Bir gün Həzrət İmam Hüseyn (ə) Həzrət Rəsulullahın (s) məscidinin yanında keçərkən orada toplaşanlara xitab elədi: «Allah-Taala mənim nəslimdən olan bir kişiyə məbus verib. O sizdən minlərlə şəxsi öldürməyincə dünya sona çatmayacaqdır».

---

[7] «İqdüd-dürər» kitabının 158-ci səhifəsində bu hədisi Şüəybin Həzrət İmam Hüseyn (ə)-dan nəql etdiyinə işarə edilmişdir. Fəqət «Biharul-Ənvar» kitabının 51-ci cildinin 39-cu səhifəsində bu hədisi yalnız Əbu Əbdullah kuniyyəsinə iqtifa edərək nəql etmişdir. Əbu Əbdullah isə həm İmam Hüseyn (ə) və həm də Həzrət İmam Sadiqin (ə) künyyəsidir. Mən bu imamların əshabı arasında belə adı olan şəxsi tanımıram.

[8] «İqdüd-dürər» səh. 160.

[9] «Əl-isabə» cild 6, səh. 397; «Biharul-Ənvar» cild 51, səh. 133. Bu hədisin ravisi olan İsa ibn Həşşəbi və ondan rəvayət edən Səd ibn Mühəmmədi rical kitablarında tapa bilmədim. Hədisdə adı çəkilən «məvtur bi əbihi» kəlməsi «şəhid edilmiş olan, atasının intiqamını almış olan» - mənasını ifadə edir. Burada atasından məqsəd öz atası İmam Həsən Əsgəri (ə) ola biləcəyi kimi, Həzrət İmam Hüseyn (ə) də ola bilər. Və yaxud ata kəlməsi cins mənasında işlədilib onunla bütün imamlar nəzərdə tutular.

Ravi deyir ki, mən o Həzrətə dedim: «Sənə fəda olum, bunlar filankəslərin uşağıdır və sayları o qədər deyil». İmam buyurdu: «Ey yazıq, o zaman bir kişinin nəslindən filan qədər törəyəcəkdir. Ayrıca bir qövmü sevən də onlardır».[10]

[10] Süyutinin «Əl-Camiüs-Səğir» adlı kitabının 158-ci haşiyəsində nəşr olunan «Kənzül-həqaiq» cild 2, səh. 128 və «Əl-Mehdiyul-Məvud» cild 1, səh. 116.

# İKİNCİ BÖLÜM

## HƏZRƏT MEHDİNİN (Ə.F) HƏZRƏT FATİMƏNİN (S.Ə) NƏSLİNDƏN OLMASI

**11.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Mən Rəsulullahın Mehdi Fatimənin nəslindəndir, - dediyini eşitdim».[11]

**12.** İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Həzrət Rəsuli-Əkrəm (s) Həzrət Fatiməyə xitab edərək buyurdu: «Ey Fatimə, sənə müjdə verim. Mehdi sənin nəslindəndır».[12]

**13.** Yenə də Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Həzrət Rəsulullah (s) Həzrət Fatiməyə (s.ə) belə dedi: «Ey qızım, Mehdi sənin övladlarındandır».[13]

---

[11] «Əl-Buxari» səh. 94.

[12] «Ürfül-vərdi» səh. 66 və «Mehdiyül-Məvid» cild 1, səh. 116.

[13] «İqmalüd-din» Mühəmməd ibn Əli əs-Səduq əl-Qumi, cild 1, səh. 317.

## ÜÇÜNCÜ BÖLÜM

## HƏZRƏT MEHDİNİN (Ə.F) HƏZRƏT İMAM HÜSEYNİN (Ə) NƏSLİNDƏN OLMASI

**14.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Bu ümmətin qaimi (haqq işi üzrə qiyam edəni) mənim doqquzuncu övladımdır. Onun bir qeybəti olacaq və onun özü həyatda ikən mirası bölüşdürüləcəkdir».[14]

**15.** Şeyx Səduq öz sənədi ilə Həzrət İmam Hüseyndən (ə) belə buyurduğunu rəvayət edir: «Mənim doqquzuncu övladımda bir nişanə Yusif peyğəmbərdən və bir nişanə də Musa peyğəmbərdən vardır».[15]

**16.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Mənim doqquzuncu öğlumda bir nişanə Yusif peyğəmbərdən, bir nişanə də Musa ibn İmrandan vardır. O bizim qiyam edənimizdir. Allah-Taala onun işini (qiyam etmə) bir gecədə doğruldacaqdır».[16]

**17.** Həzrət İmam Hüseyndən (ə) rəvayət olunmuşdur ki: «Cəddim Həzrət Rəsulullahın (s) hüzuruna getmişdim. O məni dizi üstünə alaraq belə dedi: «Ey Hüseyn, Allah-Taala sənin nəslindən doqquz imam seçmişdir. Onların doqquzuncu onların qiyam edənidir. Amma Allah dərgahında dərəcə və fəzilət baxımından hamısı eynidir».[17]

---

[14] «İqmalüd-din» Mühəmməd ibn Əli əs-Səduq əl-Qumi, cild 1, səh. 317.

[15] «İsbatül-xudat» cild 1, səh. 397; «İqmalüd-din» cild 1, səh. 117.

[16] «Yənabiül-Məvəddət» səh. 393; «Biharul-Ənvar» cild 51, səh. 110.

[17] «Kifayətül-əsər» səh. 30.

## *İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA*

**18.** Həzrət İmam Hüseyndən (ə) belə buyurduğu rəvayət olunmuşdur: «Həzrət Rəsulullah (s) mənə xitab edərək belə dedi: «Ya Hüseyn, sənin özün imamsan, imam qardaşı və imam oğlusan, sənin nəslindən doqquzu əmin və məhsumlardır. Onların doqquzuncusu Mehdidir (ə.f). Xoş o adamların halına ki, onları sevər və yazıq o adamlara ki, onlara ədavət bəslər».[18]

**19.** Həzrət İmam Hüseyndən (ə) belə buyurduğu rəvayət olunmuşdur: «Anam Fatimə (s.ə) mənə dedi ki, səni dünyaya gətirdiyim zaman babam Həzrət Rəsulullah (s) yanıma gəlmişdi. Mən səni sarı bir bezə büküb ona verdim. Rəsulullah o bezi atıb ağ bir bez götürərək səni bükdü. Sonra sağ qulağına azan və sol qulağına iqamə oxudu. Mənə tərəf dönüb buyurdu: «Al bunu, ya Fatimə (s.ə), bu imamlar babasıdır. Onun nəslindən fəzilət sahibi imam dünyaya gələcəkdir. Onların doqquzuncusu Mehdidir (ə.f)».[19]

**20.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Həzrət Rəsulullah (s) məni müjdələdiyi bir sözündə belə buyurdu: «Ya Hüseyn (ə), sən mövlasan, mövlanın oğlusan, mövlalar babasısan. Sənin nəslindən doqquzu fəzilət sahibi əmin və məhsum olan imamlardır. Onların doqquzuncusu qiyam edəcək Mehdidir (ə.f). Sən İmam, imam oğlu, imamların babasısan. Sənin nəslindən fəzilət sahibi doqquz imam dünyaya gələcəkdir. Onların doqquzuncusu Mehdidir (ə.f). O, Yer üzünü ədalət və bərabərliklə dolduracaqdır. Mənim qiyam etdiyim kimi o da axirüz-zamanda qiyam edəcəkdir».[20]

---

[18] «Kifayətül-əsər» səh. 197.
[19] «Kifayətül-əsər» səh. 176.
[20] «İqmalud-din» cild 1, səh. 269.

## *İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA*

**21.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Mən və qardaşım Həsən cəddimiz Həzrət Rəsulullahın (s) yanına getmişdik. Rəsulullah (s) məni bir dizi, qardaşımı da o biri dizi üstünə alaraq öpüb dedi: «Sizə atam fəda olsun, ey iki imam, ey iki saleh Peyğəmbər övladı. Allah-Təala sizləri cəddiniz, atanız və ananız arasından seçilmişdir. Onların doqquzuncusu qiyam edəcək. Amma Allah dərgahında fəzilət baxımından hamınız bərabərsiniz».[21]

[21] «İqdüd-dürər» səh. 134; «İqmalüd-din» cild 1, səh. 317; «İsbatül-xudad» cild 6, səh. 397; «Biharul-Ənvar» cild 51, səh. 133.

## DÖRDÜNCÜ BÖLÜM

## HƏZRƏT İMAM MEHDİNİN (Ə.F) QEYB OLMASI

**22.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət edilir: «Bu işin (qiyamın) sahibinin iki qeybəti olacaqdır. Onların biri çox iki qeybəti olacaqdır. Onların biri çox uzun sürəcəkdir. Hətta bəziləri onu ölmüş və ya öldürülmüş biləcəkdir. Bəziləri isə: yox olub getmişdir, - deyə düşünəcklər. Onun işinin həqiqətini əmrinə tabe olan xidmətçilərdən başqa heç kim bilməz».[22]

**23.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Həzrət Əmirəl-möminin Əli (ə) mənə buyurdu ki: «Sənin doqquzuncusu övladın haqq işi üçün qiyam edərək dini qalibiyyətə qovuşduran və ədaləti yayan kimsədir. Mən ondan soruşdum: «Görəsən bu gerçəkləşəcəkmi? Həzrət İmam Əli (ə) belə cavab verdi. Əlbəttə, and olsun Mühəmmədin peyğəmbərliyinə, onu Peyğəmbər göndərən Allaha ki, bu gerçəkləşəcəkdir. Ancaq heyrətləndirici bir qeybətdən sonra zühur edərkən yəginlik ruhunu daşıyan müxlis insanlardan qeyrisi onun dinində sabit qalmaz. Onlara Allah-Təala bizim vilayətimizə iqrar misaqı bağlanmışdır. Qəlbində iman yerləşdirmiş, öz dərgahından olan bir ruhla onları təyid etmişdir».[23]

**24.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Atam Əli (ə)

[22] «İqmalüd-din» cild 1, səh. 304; «Biharul-Ənvar» cild 51, səh. 110.
[23] «Yənabiül-Məvəddət» səh. 327.

## *İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA*

وَجَعَلَهَا كَلِمَةً بَاقِيَةً فِي عَقِبِهِ لَعَلَّهُمْ يَرْجِعُونَ

***«Və (Allah) onu onun nəslinin arasında əbədi (qalan) kəlmə etdi ki, bəlkə (nəsli və qövmü ona tərəf) qayıtdılar»***[24] ayəsi haqqında bunları söylədi: «Bu ayənin nazil olması Allah-Təalanın imaməti qiyamətə qədər İmam Hüseynin (ə) nəslində qərar verdiyini bəyan etmişdir. Bizdən qiyam edəcək olan imamın biri digərindən uzun çəkən iki qeybəti olacaqdır. O qeybət müddətində onun imam olduğu etiqadında yalnız o şəxslər qalacaq ki, onların güclü imanı və doğru mərifəti vardır».[25]

---

[24] «Zuxruf» surəsi, ayə 28.
[25] «Kifayətül-əsər» səh. 230.

# BEŞİNCİ BÖLÜM

## HƏZRƏT İMAM MEHDİNİN (Ə.F) ON İKİ İMAMDAN BİRİ OLMASI HAQQINDA

**25.** Yəhya ibn Cubə ibn Hübeyrədən bəla dediyi rəvayət olunmuşdur: «Bir nəfər Həzrət İmam Hüseyndən (ə) imamlar haqqında soruşarkən o cavab verdi: «İmamlar Bəni-İsrail nücabələri kimi on iki nəfərdir. Onların doqquzu mənim nəslimdəndir və sonuncusu qiyam edəcəkdir. Mənim özüm isə Həzrət Rəsulullahın (s) belə dediyini eşitdim: «Müjdə olsun sizə, müjdə olsun sizə (bunu üç dəfə təkrar etdi), mənim Əhli-beytimin misalı eynən bir baxçaya bənzər ki, bir qrup insanlar onun nemətlərindən yararlanarlar. Sonda gələn qrup onu daha geniş, daha dərin, çox zəngin və gözəl bir dəniz kimi tapacaqlar. Əvvəlində mən, sonda isə məndən törəyəcək ağıl sahibi on iki imam axırında Məryəm oğlu Məsihin olduğu bir hümmət necə həlak ola bilər. Fəqət arada ağırlığa sahib olmayan bir qrup insanlar həlak olacaqlar ki, onlar məndən deyil, mən də onlardan deyiləm».[26]

**26.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Həzrət Əmirəl-möminin Əli ibn Əbu Talibdən Həzrət Rəsulullahın (s) belə dediyi hədis şəklində rəvayət olunmuşdur: «Mən sizin aranızda iki dəyərli əmanət qoyuram: biri Allahın kitabı, o biri mənim itrətim. Həzrət Əlidən (ə) soruşdular: Ya Əli, itrət kimdir? Cavab verdi: İtrət mən, Həsən, Hüseyn və

[26] «İqmalüd-din» cild 1, səh. 240. Bu hədisdə işarə edilən səqəleyn hədisini bir çox əhli-sünnət hədis yazarları müxəlif təriqətlərlə öz səhih və sünnələrində nəql etmişlər.

Hüseynin nəslindən olan doqqquz imamdır. Onların doqquzuncusu qiyam edəcəkdir. Həzrət Rəsulullahın (s) hovuzu yanında təkrar o Həzrətə yetişincəyə qədər onlar Allahın kitabından, Allahın kitabı da onlardan ayrılmayacaqdır».[27]

**27.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Həzrət Rəsulullahın (s) hüzuruna getmişdim. Onun fikirli və kədərli olduğunu gördüm. Soruşdum ki, niyə belə fikirlisiz. Cavab verdi: Ey oğlum, Ruhul-Əmin (Cəbrail) nazil oldu və mənə dedi ki: «Ya Rəsulullah (s) uca Allah sənə salam edərək artıq ömrünün keçib, vaxtının sona çatdığını bildirir. Bundan sonra İsmül-Əkbəri, elm mirasını və nübüvvət elmi kitabını Həzrət Əli ibn Əbu Talibin yanında qoy. Çünki mən Yer üzünü mənim itaətimin və vilayətimin tanınması vasitəsi olan bir alimdən xali etmərəm, boş buraxmaram. Mən qeybdən gələn nübüvvət elmini səninlə baban Adəm peyğəmbər arasında olan digər peyğəmbərin zürriyyətindən kəsmədiyim kimi, sənin də zürriyyətindən kəsməyəcəyəm». Mən bu zaman Həzrət Rəsulullaha (s) belə dedim: «Səndən sonra bu işin sahibi (bu ilahi elmin varisi) kimdir? Cavab verdi: «Atan Əli ibn Əbu Talib, o mənim qardaşım və xəlifəmdir. Əlidən sonra bu işin sahibi Həsəndir. Ondan sonra sən və sənin nəslindən olan doqquz nəfər bu işə sahib olacaqdır. Beləliklə on iki imam hakim olacaq və sonra bizim qiyam edənimiz zühur edib Yer üzünü zülm və təcavüzdən təmizləyərək ədalət və bərabərliklə dolduracaqdır. Bununla da onun şiəsi olan möminlərin qəlbi rahatlıq tapacaqdır».[28]

---

[27] «Kifayətül-əsər» səh. 178.
[28] «Kifayətül-əsər» səh. 323.

## *İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA*

**28.** Yəhya ibn Yəmurdan belə dediyi rəvayət olunmuşdur: «Mən Həzrət İmam Hüseynin (ə) yanında idim. Üzü rubəndli bir ərəb gəlib imama salam verdi və imamın cavabından sonra belə dedi: «Ey Peyğəmbərin oğlu, bir sualım var». İmam dedi: «Buyurun». Bundan sonra həmin şəxs belə bir sual verdi: «İmanla yəgin arasında nə qədər məsafə var?» İmam cavab verdi: «Dörd barmaq qədər». O şəxs dedi: «Bunu mənə aydınlaşdırarsanmı?» İmam buyurdu: «Çünki İman eşitdiyimiz bir şeydir, ona inanmaqdır. Yəgin isə gördüyümüz bir şeydir. Qulaqla göz arasında məsafə isə dörd barmaqdır» Ərəb dedi: «Şərq və Qərb arasında nə qədər məsafə var?» İmam cavab verdi: «Günəşin bir gündə qət etdiyi məsafə qədər». «Göy ilə Yer arasında nə qədər məsafə vardır» deyə soruşan ərəbə İmam cavab verdi: «Müstəcəb olan bir duanın gözləmə müddəti qədər». O şəxs dedi: «İnsanın izzəti nə ilə ölçülür». İmam cavab verdi: «Xalqa öz ehtiyaclarından söz açmaqla». O şəxs dedi: «Bəs ən pis şey nədir?» İmam buyurdu: «İxtiyar olan bir şəxsin fisqə düşməsi, hökmdarın qəzəblənməsi, əsil nəcabətli bir adamın yalan danışması, dövlətlinin xəsis olması və alimin dünya malında gözü olması». Bundan sonra o şəxs belə davam etdi: «Ey Rəsulullahın oğlu, doğru söylədin, mənə Həzrət Rəsulullahdan (s) sonra olan imamların sayını bildir». İmam buyurdu: «Onların sayı on iki nəfərdir». O şəxs: «Onların adları nədir?» - deyə soruşdu. Bu sualdan sonra imam bir qədər başını aşağı salıb düşündükdən sonra cavab verdi: «Bəli, ey ərəb qardaş, onların adlarını sənə deyim». Həzrət Rəsulullahdan (s) sonra imam və xəlifə Əmirəl-möminin Əli, Həsən və mənim nəslimdən olan doqquz nəfər şəxs. Məndən sonra oğlum Əi, ondan sonra onun oğlu Mühəmməd, Mühəmməddən sonra oğlu Cəfər, Cəfərdən sonra oğlu Musa,

Musadan sonra oğlu Əli, Əlidən sonra oğlu Mühəmməd, Mühəmməddən sonra oğlu Əli, Əlidən sonra oğlu Həsən, Həsəndən sonra Mehdi olan oğlu imam olacaqdır. O, mənim doqquzuncu övladımdır. Dünyanın sonunda din uğrunda qiyam edəcəkdir». Ravi deyir: «İmamın bu cavabından sonra o ərəb qalxıb bu şeiri oxuyaraq getdi: «Peyğəmbər alnına əlini çəkmiş, onun barmaqları üzündə görünür, atası və anası Qüreyşin ən ucası və nəsillərin ən xeyirlisidir».[29]

**29.** İsmayıl ibn Əbdüllahdan[*] Həzrət İmam Hüseynin (ə) belə buyurduğu rəvayət olunmuşdur: ***«Əqrəbalar bir-birinə daha övladır»*** [30] ayəsinin mənasını Həzrət Rəsulullahdan (s) soruşdum. Həzrət Rəsulullah (s) belə buyurdu: «And olsun Allaha ki, burada sizdən başqası nəzərədə tutulmamışdır. Ülül-Ərham əqrəbalar sizsiniz. Mən vəfat edəndən sonra atan Əli mənə övladır və mənim yerimdədir. O vəfat etdikdən sonra qardaşın Həsən ona övladır. Həsən də vəfat edəndən sonra sən ona övlasan». Bundan sonra Rəsulullahdan soruşdum: «Ey Allahın Rəsulu, məndən sonra mənə daha övla kim olacaq?» Rəsulullah (s) belə buyurdu: «Oğlun Əli, səndən sonra sənə övladır. O vəfat edərkən Mühəmməd ondan sonra övladır, o da vəfat etdimi, oğlu Cəfər ondan sonra övladır və onun yerindədir. Cəfər vəfat edəndə, oğlu Musa, Musa vəfat edəndə oğlu Əli, Əli vəfat edəndə oğlu Muhəmməd, Mühəmməd vəfat edəndə oğlu Həsən, Həsən də vəfat edəndə sənin doqquzuncu

---

[29] «Kifayətül-əsər» səh. 175.

[*] İsmayıl ibn Əbdüllah ibn Cəfər Təyyar Həzrət İmam Səccadın əshablarındandır. Amma onun Həzrət İmam Hüseyndən də hədis nəql etməsi uzaq bir ehtimal deyildir. Ola bilsin ki, o hədisi atası Əbdullahın vasitəsi ilə Həzrət İmam Hüseyndən (ə) eşitmiş, lakin hədisi zikr edərkən atasının adını göstərməmişdir.

[30] «Ənfal» surəsi, ayə 75.

övladının qeybəti başlayacaqdır. Bu doqquz imam sənin nəslindəndir. Allah-Təala onlara mənim elm və fəhmimi vermişdir. Onların torpağı mənim torpağımdandır. Bu qövm mənə əziyyət verəcəkdir. Allah onlara mənim şəfaətimi nəsib eləməsin».[31]

**30.** Həzrət İmam Hüseyn (ə) və Həzrət İmam Həsəndən (ə) Həzrət Rəsulullahın (s) belə buyurduğu rəvayət olunmuşdur: «Məndən sonra gələn imamaların sayı Bəni-İsrailin və İsanın həvarilərinin sayı qədərdir. Onlları sevən şəxslər mömin, onlara ədavət bəsləyənlər isə münafiqdir. Onlar Allaın xalqa olan höccət və rəhbərləridir».[32]

**31.** Həzrət İmam Hüseyndən (ə) Həzrət Rəsulullahın (s) belə buyurduğu rəvayət olunmuşdur: «Mən möminlərə onların öz nəfislərindən daha övlayam. Sonra ey Əli, sən möminlərə onların öz nəfislərindən daha övlasan. Sonra Həsən möminlərə öz nəfislərindən daha övladır. Ondan sonra Hüseyn möminlərə öz nəfislərindən daha övladır. Ondan sonra onun oğlu Əli möminlərə öz nəfislərindən daha övladır. Ondan sonra onun oğlu Məhəmməd, Mühəmmədin oğlu Cəfər, Cəfərin oğlu Musa, Musanın oğlu Əli, Əlinin oğlu Mühəmməd, Mühəmmədin oğlu Əli, Əlinin oğlu Həsən möminlərə öz nəfislərindən daha övladır. Həsəndən sonra da Allahın höccəti olan onun oğlu möminlərə öz nəfislərindən daha övladır. Bunlar ehsan əhli olan imamlardır. Haqq onlarladır, onlar da haqq ilə».[33]

---

[31] «Kifayətül-əsər» səh. 166.
[32] «Kifayətül-əsər» səh. 177.
* Əta ibn Riyah Həzrət Əmirəl-möminin Əlinın (ə) əshabındandır.
[33] «İqmalüd-din» cild 1, səh. 317; «Üyunül-əxbar-din» cild 1, səh. 18.

## *İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA*

**32.** Əbdürrəhman ibn Səlt Həzrət İmam Hüseyndən (ə) belə buyurduğunu rəvayət edir: «Hidayət olunmuş və hidayət edən on iki zat bizdəndir. Onların birincisi Əmirəl-möminin Əli ibn Əbu Talib, sonuncusu isə mənim doqquzuncu övladımdır. O haqq işi üçün qiyam edəcəkdir. Yer üzü öldükdən sonra Allah onunla bütün Yer üzünü yenidən dirildəcəkdir. Müşriklər istəməsə də onunla dinin hamısını aşkar edəcəklər».[34]

**33.** Əbdullah ibn Səd Həzrət İmam Hüseyndən (ə) Həzrət Rəsulullahın (s) belə buyurduğunu rəvayət etmişdir: «Cəbrail mənə xəbər verdi ki, Allah-Təala Mühəmməd adını ərşin ətəyinə yazarkən mən dedim: «Ya Rəbbim! Sənin ərşində yazılan bu adın sənə ən əziz olan məxluqun adı olduğunu görürəm». Bu an Allah-Təala göylə yer arasında ruhu olmayan on iki bədən misalını mənə göstərdi. Bundan sonra mən dedim: «Ya Rəbbim, onların sənin dərgahında olan məqamı xatirinə kim olduqlarını mənə bildir». Allah-Təla onları bir-bir göstərərək buyurdu: «Bu Əli ibn Əbu Talib nurudur, bu Həsən və Hüseynin, bu Əli ibn Hüseynin nurudur. Bu Məhəmməd ibn Əlinin, bu Cəfər ibn Məhəmmədin, bu Musa ibn Cəfərin, bu Əli ibn Musanın, bu Məhəmməd ibn Əlinin, Əli ibn Məhəmmədin, bu Həsən ibn Əlinin nurudur. Bu isə qiyam edəcək Höccətin nurudur». Daha sonra imam davam edərək bunları dedi: «Həzrət Rəsulullah (s) buyurdu: «Hər kim Allah-

---

[34] «Kifayətül-əsər» səh. 169.

* Zahirən Yəzidi əl-Səmma İmam Hüseyn əshabından olan İbn Sabit deyilən şəxsdir. Bu şəxsin Həzrət Əlinin əshabından Yezid ibn Cəblə, Yezid ibn Hatəm də olması güman edilir.

Təalaya bunları vasitə edərək yaxınlaşsa, Allah-Təala onu cəhənnəm odundan xilas edər».[35]

**34.** Musa ibn Əddi Rəbbihdən belə dediyi rəvayət olunmuşdur: «Hələ Həzrət İmam Əli sağ ikən mən eşitdim ki, Həzrət Hüseyn (ə) deyirdi: «Mən Həzrət Rəsulullahın (s) belə dediyini eşitmişəm: «Allah-Təalanın ilk yaratdığı şey öz hicablarıdır: O hicabların dirəklərinə «La ilahə illəllah, Mühəmmədən Rəsulullah, Əliyyün-Vəsiyyihu (yəni Allahdan başqa bir məbud yoxdur, Mühəmməd Allahın rəsuludur, Əli də onun vəsisidir)» yazmışdır. Allah-Təala sonra ərşi yaratmış, onun da dirəklərinə eyni şeyi yazmışdır. Sonra yerləri yaratmışdır. Yerlərin dirəkləri olan dağlar da həmin sözləri yazmışdır. Sonra lövhü yaratmış. Onun kənarlarına həmin sözü yazmışdır». Buna görə onun vəsisini sevmədiyi halda Peyğəmbəri sevdiyini sanan bir şəxs yalan danışır.

... Sonra Rəsulullah (s) belə buyurdu: «Bilin ki, mənim Əhli-beytim sizə bir sığınaqdır. Mənim xatirimə onları sevin və zəlalətə düşməməyiniz üçün onlardan yapışın». Bu zaman Həzrət Rəsulullahdan (s) soruşdular: «Sənin Əhli-beytin kimlərdir?» Rəsulullah (s) cavab verdi: «Əli, iki oğlu və Hüseynin nəslindən doqquz məhsum. Bilin ki, onlar mənim Əhli-beytim və itrətimdim. Onların əti mənim ətimdən və qanları mənim qanımdandır».[36]

**35.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «On iki hidayət edilən imam bizdəndir. Onların birincisi Əli ibn Əbu Talib, sonuncusu isə qiyam edəcək Mehdidir».[37]

---

[35] «Kifayətül-əsər» səh. 177.
[36] «Biharul-Ənvar» cild 51, səh. 133.
[37] «İqdüd-dürər» səh. 41.

# ALTINCI BÖLÜM

## İMAM MEHDİNİN (Ə.F) ƏLAMƏTLƏRİ

**36.** Haris ibn Müceyrə ən-Nəzridən* belə dediyi rəvayət olunmuşdur: «Mən Həzrət İmam Hüseyndən (ə) soruşdum: «İmam Mehdini hansı əlamətlərlə tanımaq mümkündür?» İmam buyurdu: «Sükunət və vuqarla». Sonra təkrar soruşdum: «Başqa hansı əlaməti var?» Cavab verdi: «Halal və harama mərifəti olması və xalqın ona möhtac olduğu halda onun heç kimə möhtac olmaması ilə».[38]

**37.** Həzrət İmam Hüseyndən (ə) belə buyurduğu rəvayət olunmuşdur: «İmam Mehdinin qiyamının bu qədər çəkməsi nə ilə izah oluna bilər? And olsun Allaha ki, o qalın və qaba libasdan başqa libas geyməz, arpa çörəyindən başqa bir çörək yeməz. Və o qılıncdan və qılınc altında ölümdən başqa bir şey deyildir».[39]

**38.** Həzrət İmam Hüseyndən (ə) belə buyurduğu rəvayət olunmuşdur: «Mehdi qiyam edərkən xalq onu tanımayacaqdır. Çünki o xalqa gözəl simalı bir gənc kimi görünəcəkdir. Həqiqətən də xalqın onu yaşlı bir ixtiyar olduğunu sandıqları

---

* «İqdüd-dürər» kitabıda Əbu Əbdullah künyyəsindən sonra İmam Hüseynin adını qeyd edilmişdir. Lakin bunun bir səhv olduğunu zənn edirəm. Çünki Haris ibn əl-Muğeyrə əl-Nəzri Həzrət Əbu Əbdullah İmam Sadiqin əshablarındandır. Onun vasitəsiz Həzrət İmam Hüseyndən hədis ala bilməsi uzaq bir ehtimaldır.

[38] «İqdüd-dürər» səh. 228.

[39] «İqdüd-dürər» səh. 41.

halda, sahiblərinin bir gənc olaraq onlara görünməsi ən böyük imtahandır».[40]

[40] «İqdüd-dürər» səh. 41. Bu rəvayətin ravisi olan Mühəmməd ibn Samit Həzrət Əbu Əbdullah İmam Sadiqin əshablarındandır. Buna görə «İqdüd-dürər» kitabının sahibinin Əbu Əbdullah künyyəsindən sonra Həzrət İmam Hüseynin adını yazması ya onun xətasından, ya da Mühəmməd ibn Samitdən əvvəlki ravinin xətasındandır.

# YEDDİNCİ BÖLÜM

## İMAM MEHDİNİN (Ə.F) ZÜHUR ƏLAMƏTLƏRİ

Mühəmməd ibn Samitdən rəvayət olunmuşdur. O deyir: «İmam Hüseyn (ə)-dan soruşdum: «Mehdinin zühurundan əvvəl bir nişanə və əlaməti varmı?» İmam buyurdu: «Bəli, var». Ravi deyir: «O əlamətlər hansılardır» - deyə soruşdum. İmam Hüseyn (ə) belə buyurdu: «Bəni-Abbas həlak olub gedəcək, süfyanilər xüruc edəcək, Bəyza çölündə bir dəstə adam yerə batacaq». Ravi deyir: «Mən İmam Hüseynə dedim: «Sənə fəda olum, bunun çox uzun çəkməsindən qorxuram». İmam cavab verdi: «Bunlar eynən bir təsbih danələri kimi ardıcıllıqla düzülmüşdür. Biri digərini təqib edəcəkdir».[41]

**39.** Həzrət İmam Hüseyndən (ə) belə buyurduğu rəvayət olunmuşdur: «Mehdinin zuhurunun beş əlaməti vardır: Süfyaninin xuruc etməsi, Yəməninin xüruc etməsi, bir dəstənin Bəyza çölündə yerə batması, nəfsi-Zəkiyyənin qətl edilməsi».[42]

**40.** «İqdüd-dürər» kitabının müəllifi sənədlərlə İmam Hüseyndən (ə) nəql etdiyi bir hədisdə göstərir ki, İmam Hüseyn (ə) belə buyurmuşdur: «Bir neçə gecə ardıcıl olaraq Şərq tərəfdən doğan böyük bir əlaməti gördüyümüz zaman xalqın qurtuluş zamanı, yəni Mehdinin zühur etmə zamanıdır».[43]

---

[41] «Əl-Bürhan» səh. 113.

[42] «İqdüd-dürər» səh. 106; «Əl-Bürhan» səh. 109.

[43] «İqdüd-dürər» səh. 208. Bu hədisin bir hissəsi 6-cı bölümdə verilmişdir.

## SƏKİZNCİ BÖLÜM

## HƏZRƏT İMAM MEHDİNİN (Ə.F) ZÜHURUNDAN SONRAKI VƏZİYYƏT

**41.** Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Mehdi zühur etdiyi zaman onunla ərəblər və Qüreyş arasında qılıncdan (döyüşdən) başqa bir şey olmayacaqdır. And olsun Allaha ki, onun geyimi qaba bir libas, yeməyi də arpa çörəyindən ibarətdir. O qılınc və qılınc altında ölümdən başqa bir şey yoxdur».[44]

Həzrət İmam Hüseyndən (ə) belə rəvayət olunmuşdur: «Bir-birinizin halını soruşub, bir-birinizə ehsan edin. And olsun dənəni yarıb yaşıllaşdıran və canlıları yaradan Allaha ki, elə bir zaman gələçək ki, heç bir kimsə bir dinar və dirhəm xərcləməyə bir yer tapmayacaqdır». (yəni Mehdinin zühur etdiyi zaman Allah-Təalanın və valisinin çoxlu fəzlindən dolayı heç kimsə pulunu xərcləyəcək bir yer tapmayacaqdır).[45]

---

[44] «İqdüd-dürər» səh. 171.

* Qırqısiya Həbur nəhri ilə Fərat çayı arasındakı yerin adıdır. «Mərasidül-ittila» kitabının 1-ci cildinin 444-cü səhifəsində yazılıb: «Həbur nəhri Cəzirə bölgəsinin Fərata tökülən bir qoludur. Onun sahilində Ürban və Qırqısiya kimi şəhərlər və geniş vilayətlər yerləşmişdir. Qırqısiya Həbur nəhrinin Fərata töküldüyü yerdədir».

[45] «İqdüd-dürər» səh. 236.

## DOQQUZUNCU BÖLÜM

## HƏZRƏT İMAM MEHDİNİN (Ə.F) SİRƏTİ

**42.** Həsən ibn Harundan* belə dediyi rəvayət olunmuşdur: «Mən Həzrət İmam Hüseynin (ə) yanında oturmuşdum. Bu zaman Müəlla ibn Xoneys imama dedi: «Görəsən Mehdinin Həzrət Əlinin sirəti ilə fərqli olacaq bir hərəkəti varmı?» İmam buyurdu: «Bəli, olacaqdır. Çünki Həzrət Əli özündən sonra onların (düşmənlərin) şiələrə qalib olacağını bildiyindən onlarla yumşaq davranır və öldürmürdü. Amma Mehdi özündən sonra oların şiəsinə əsla qalib olmayacağını bildiyindən onları öldürüb əsir edəcəkdir».[46]

---

* «İqdüd-dürər» kitabının müəllifi bu hədisi Həsən ibn Harunun Həzrət İmam Hüseyndən (ə) nəql etdiyini yazırsa da şübhəsiz, bu bir xətadır. Çünki adı çəkilən ravi Həzrət Əbu Əbdullah İmam Sadiqin əshablarındandır. Başqa sözlə vasitəsiz olaraq Həzrət İmam Hüseyndən onun hədis nəql etməsi mümkün deyildir. O halda Həzrət İmam Hüseynin adının Əbu Əbdullah künyəsindən sonra qeyd etmək adı çəkilən müəllifin yanlışlığından əmələ gəlmişdir. Rəvayətdə söz soruşan Müəlla ibn Xoneys buna başqa bir misaldır. Çünki bu şəxs də Həzrət İmam Sadiqin əshablarındandır.

[46] «İqdüd-dürər» səh. 239.

## ONUNCU BÖLÜM

## HƏZRƏT MEHDİNİN (Ə.F) HÖKMDARLIQ MÜDDƏTİ

**43.** Həzrət İmam Hüseyndən (ə) belə buyurduğu rəvayət olunmuşdur: «Mehdi on doqquz il hökmdarlıq edəcək».

Qeyd etməliyik ki, Həzrət İmam Məhdinin (ə.f) hökmranlıq müddəti ilə bağlı digər rəvayətlər də vardır. Həzrət İmam Hüseyndən nəql etdiyimiz bu rəvayətin qarşısında digər imamlardan gələn rəvayətlərin bəzisində Həzrətin hökmdarlıq müddəti 10 il, bəzisində 30 il, bəzisində 40 il, bəzisində 7 il, bəzisində 70 il və s. zikr edilmişdir. Biz bu cür rəvayətlərdən bir necəsini örnək olaraq göstərdikdən sonra onların biri-digəri ilə uyuşması ilə bağlı üləmanın bəzi sözlərinə işarə edərək bu kiçik risaləni sona çatdırırıq.

**44.** Nuəym ibn Həmməd Həzrət İmam Əmirəl-möminin Əlinin belə buyurduğunu rəvayət etmişdir: «Mehdi Konstantiniyəni, Çini və Deyləm dağlarını fəth edəcək, hər il sizin ilinizdən 10 il miqdarında olan yeddi il hökmranlıq edəcəkdir.

Beləliklə bəzi rəvayətlərdə 30, bəzisində isə 40 il olaraq nişan verilərkən «İqdüd-dürər» kitabının müəllifi Həzrət İmam Məhəmməd Baqirdən nəql etdiyi hədisdə «... üç yüz doqquz il hökmranlıq edəcəkdir» - demişdir.

«Əl-Bürhan» kitabının müəllifi, «Əl-qəvlül-müxtəsər fi-əlamətil-Mehdi» kitabının müəllifi Şeyx Əhməd ibn Hacərin adı çəkilən kitabda bu rəvayətlə bağlı bunları yazdığını qeyd edir: «Bu rəvayətlərin doğru olduqları təqdirdə onlar arasında

uyğunluq saxlamaq mümkündür. O Həzrətin hökmdarlığı zühur və güc baxımından dəyişməkdədir. Buna görə ən çox müddəti bildirən hədis o Həzrətin hökmdarlığının əslində, ən az müddəti bildirən hədis o Həzrətin hökmdarlığının ən yaxşı dövrünə, orta müddəti bildirən hədislər isə o Həzrətin hökmdarlığının bu iki hal arasında qalan dövrlərinə işarə etdiklərini söyləyə bilərik».

«Biharül-Ənvar» kitabının müəllifi də bu barədə aşağıdakıları bildirir: «Həzrət İmam Məhdinin (ə.f) hökmdarlığı ilə bağlı gələn bu müxtəlif rəvayətlərin bəzisi Həzrətin hökmdarlıq müddətinin hamısına, bəzisi dövlətinin qərar tutduğu müddətə, bəzisi bizim bildiyimiz il və aylara, bəzisi Həzrətin zühur zamanında baş verəcək uzun ay və illərə yoxularaq aralarında görünən fərqlər meydana çıxmışdır».

Həzrət İmam Hüseyndən (ə) gələn hədislər içərisindən İmam Məhdi ilə bağlı topladığımız hədislər burada sona çatır. Bu kiçik risaləni hicri-qəməri 1406-cı ildə İstanbulda əvvələr yazdığım digər bir risalənin içərisindən seçmişəm. Əvvəldə də, sonda da həmd yalnız Allaha məxsusdur.

Ey Allahım, biz səndən İslam və islam əhlinin izzət tapıb, nifaq və nifaq əhlinin zillətə düşəcəyi uca bir düzən və bizləri o düzən içərisində sənin itaətinə dəvət və hidayət edilənlərdən qərar verək dünya və axirət kəramətinə qovuşdurduğun bəndələrindən hesab etməyini diləyirik.

## *İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA*

*Həzrət Məhdi (ə.f):*
*Bilin ki, haqq həqiqətən bizimlədir; bizdən başqa özündə haqqın olduğunu söyləyən kimsə yalançı və iftiraçıdır; bizdən başqa kim onu iddia edərsə yolundan azmışdır.*

*«Kəmalud-din» cild 2, səh. 511.*

***İMAM HÜSEYNİN (Ə) HƏZRƏT MEHDİ (Ə.F) HAQQINDA***

## MÜNDƏRİCAT


**BİRİNCİ BÖLÜM:** MÜJDƏ VERƏN HƏDİSLƏR

**İKİNCİ BÖLÜM:** HƏZRƏT MEHDİN (Ə.F) HƏZRƏT FATİMƏNİN (S.Ə) NƏSLİNDƏN OLMASI

**ÜÇÜNCÜ BÖLÜM:** HƏZRƏT MEHDİNİN (Ə.F) HƏZRƏT İMAM HÜSEYNİN (Ə) NƏSLİNDƏN OLMASI

**DÖRDÜNCÜ BÖLÜM:** HƏZRƏT İMAM MEHDİNİN (Ə.F) QEYB OLMASI

**BEŞİNCİ BÖLÜM:** HƏZRƏT İMAM MEHDİNİN (Ə.F) ON İKİ İMAMDAN BİRİ OLMASI HAQQINDA

**ALTINCI BÖLÜM:** İMAM MEHDİNİN (Ə.F) ƏLAMƏTLƏRİ

**YEDDİNCİ BÖLÜM:** İMAM MEHDİNİN (Ə.F) ZÜHUR ƏLAMƏTLƏRİ

**SƏKİZNCİ BÖLÜM:** HƏZRƏT İMAM MEHDİNİN (Ə.F) ZÜHURUNDAN SONRAKI VƏZİYYƏT

**DOQQUZUNCU BÖLÜM:** HƏZRƏT İMAM MEHDİNİN (Ə.F) SİRƏTİ

**ONUNCU BÖLÜM:** HƏZRƏT MEHDİNİN (Ə.F) HÖKMDARLIQ MÜDDƏTİ